Archive of SID



УДК 94.(479.24).
KBT 63.3 (2) 47; 63.48(=60); (0) (2) (24); 60.84.
http://dx.doi.org/10.29228/metafizika.9

*Şəfəq ƏHMƏDOVA**
*(Azərbaycan)*

*AMEA, Fəlsəfə İnstitutu*

# XVIII əsrin əvvəllərindən XIX əsrin əvvəllərinədək Rusiyanın Qafqazda siyasəti (tarixi informasiya)

***Xülasə***

*Məlum olduğu kimi, Azərbaycan Respublikasının milli maraqlarının həyata keçirilməsi həm də informasiya təhlükəsizliyi ilə bağlı bir çox vəzifələrin həllini tələb edir. Lazımi məlumatların əldə edilməsi, qorunması, istifadə edilməsi həm ölkənin, həm də bütövlükdə bölgənin əmin-amanlığına əngəl olan regional etnik münaqişələrin həllində uğurlu taktika üçün imkan yaradır. Məlumatlar münaqişənin mənşəyinin və onun həllinin çoxsaylı aspektləri ilə bağlıdır. Münaqişənin yaranmasının tarixi kökləri var. Münaqişənin bilavasitə səbəbi isə konkret hadisələr ola bilər. Belə faktlar və hadisələrin ətrafında ictimai rəy formalaşır. Münaqişənin bu və ya digər tərəfinə dəstək olan qüvvələrin öz siyasi maraqları var. Bütün bunlar məlumatla bağlı olaraq siyasi proseslərin gedişatına təsir göstərir. Məqalədə Rusiyanın Qafqazda yürütdüyü siyasətin tarixi mərhələləri və burada erməni amilinin rolu tədqiq olunur. Tarixi faktların göstərdiyi kimi, bu proseslərin cərəyan etməsində bir çox obyektiv və subyektin amilləri nəzərə almaq lazımdır. Öz müqəddəratını əsrlər ərzində təyin edə bilməyən erməni icması Yaxın Şərq və Avropanın bir çox, o cümlədən Cənubi Qafqaz ərazilərində qərar tutmaq üçün qrigorian apostol kilsəsinin dünyada şaxələnmiş məntəqələrinin imkanlarından faydalanaraq geniş diplomatik fəaliyyəti həyata keçirməyə çalışmışlar. Burada ermənilər tacir, hərbiçi, keşiş, terrorçu, casus və s.*

* Siyasi elmlər üzrə fəlsəfə doktoru, shafag.ahmaova@gmail.com, https://orcid.org/0000-0002-8671-5757



www.SID.ir

Archive of SID


*qismində çıxış edərək istər Rusiya daxilində, istərsə də Qafqaz, Türkiyə və İran ərazilərində öz fəaliyyətini genişləndirirdilər. Bu fəaliyyət həm də Rusiyanın strateji maraqları ilə üst üstə düşürdü. Bu cür məlumatlar müasir Ermənistan-Azərbaycan qarşıdurmasında yenidən nəzərdən keçirilməli və nəzərə alınmalıdır ki, informasiya müharibəsində Azərbaycan mövqeyi üstün olsun.*

***Açar sözlər:*** *Çar Rusiyası, Cənubi Qafqaz, siyasi ekspansiya, erməni icması, sosial-demoqrafik siyasət və onun nəticələri*

## *Giriş*

Bölgə ərazisində cərəyan edən hadislərin tarixi gedişatını izləməklə bir neçə məqsədə nail olmaq mümkün olur: tarixi faktların doğru olub-olmamasını sübuta yetirmək; müasir siyasi proseslərdə səbəb-nəticə əlaqələri baxımından onların rolunu təyin etmək; Cənubi Qafqaz bölgəsində baş verən hadisələrə təsirini müəyyənləşdirmək, bununla da tarixi həqiqətləri üzə çıxarmaq. Tarixi yaddaş baxımından bunu etmək olduqca vacibdir: "mədəniyyətin hər bir tarixi növünə uyğun olan tarixi yaddaş növü mövcuddur"[1]. Bu baxımdan, Rusiyanın əsrlər ərzində həyata keçirdiyi siyasəti qiymətləndirilməlidir ki, Azərbaycan öz siyasi prioritetlərini təyin edə bilsin. Rusiyanın bölgədə əsrlər boyu həyata keçirdiyi siyasət tarixi göstərir ki, Cənubi Qafqaz bölgəsində baş verən hadisələri və prosesləri Rusiyanın Osmanlı imperiyası[2] və Əfşarlar, Qacarlar imperiyaları arasında mübarizə nəzərə alınmadan obyektiv qiymətləndirilə bilməz. Məlum olduğu kimi, "Qacar dövründə İranın Rusiya ilə əlaqələri, xüsusən Fəth Əli Şahın hakimiyyəti dövründə düşmən və davamlı qarşıdurma vəziyyətində idi. Fəth Əli Şahın dövründə İran və Rusiya arasında uzun müddətli iki mü-

[1] Rəsulova, Y. (2019). *Tarixi yaddaş mədəniyyətin təkamülü dinamikasında*. Metafizika Jurnalı, (ISSN 2616-6879). cild. 2. sayı 1. sıra 5.

[2] Жуков, К.А. (2009). *Некоторые узловые моменты русско-турецких отношений в конце XVII - начале XX вв.* Вестник Санкт-Петербургского университета. Серия 13. Востоковедение. Африканистика, серия 13, выпуск 2( с.10-22); L. Hamilton Rhinelander. Russia's Imperial Policy: The Administration of the Caucasus in the First Half of the Nineteenth Century // Canadian Slavonic Papers / Revue Canadienne des Slavistes Vol. 17, No. 2(3), RUSSIAN AND SOVIET CENTRAL ASIA (Summer and Fall, 1975), (pp. 218-235)


www.SID.ir

Archive of SID


haribə baş verdi”.[1] Digər tərəfdən, “Afşari hökuməti hicri 1148-ci ildə Asiyanın son fəthi olan Nadir Şah Afşar tərəfindən quruldu. Nadir Şah, bir müddət sonra İsfahanı fəth edən daxili Əfqan işğalçıları ilə geniş siyasi və hərbi fəaliyyət göstərdi. Həm də Osmanlıların, Özbəklərin, Rusların və s. sürgün edilməsi və Səfəvi sülaləsinə monarxiyanın müvəqqəti bərpası nəhayət Muğanın düzündə İran taxtına çatdı. Nadir şah hökuməti suveren bir dövlət idi və 12 il hökm sürdü, davamlı olaraq daxili üsyançılarla mübarizə etdi və s.[2] Aydındır ki, Cənubi Qafqaz bölgəsi tarixən böyük güclər arasında ziddiyyət və maraq mənbəyi olmuşdur. Bu baxımdan, indiki Azərbaycan dövlətinin mövqeyi və inkişaf perspektivlərini əsaslı şəkildə tarixi tədqiqat aparılmadan təyin etmək mümkün olmayacaq. İnformasiyanın mənbəyi burada ilk növbədə bölgədə baş verən tarixi hadisələrdir. Məqalədə bu və digər tarixi hadisələrin ümumi icmalı verilir ki, nəticədə bu günkü siyasi inkişaf xətti təyin oluna bilsin.

## *Rusiyanın Qafqazda siyasətinin tarixi mərhələləri və ifaçıları*

Məlum olduğu kimi, I Pyotr Xəzər dənizinin sahillərini öyrənmək üçün buraya ekspedisiya göndərdi. 1714-1715-ci illərdə A.Bekoviç-Çerkasski Xəzərin şimal və şərq sahillərinin təsvirini tərtib etdi. 1718-ci ildə N.Kojin və V.Urusov da Xəzərin şərq sahilinin təsvirini verdilər. 1719-1720-ci illərdə Verden və F.Soymonov Xəzər dənizinin qərb və cənub sahillərini təsvir etdilər[3]. Bu ekspedisiyalar nəticəsində bütün Xəzərin kompozit xəritəsi tərtib edildi. Dövrün səviyyəsinə uyğun üsullarla aparılan tədqiqat işləri nəticəsində Xəzər dənizinin bütün sahilləri, sahil sularının dərinliyi və dənizdəki su axınının istiqaməti, limanlar, buxtalar, sualtı qayalar dəqiqliklə öyrənildi, nəticədə Xəzər dənizinin xəritəsi hazırlandı. Çox təəssüf ki, Azərbaycan dəniz sahilli bir dövlət olsa da, keçmişdə heç vaxt hərbi donanmaya malik olmayıb

---

[1] Кузнецова, Н.А. *Иран в первой половине XIX века (1983).* Москва: Наука. Главная редакция восточной литературы, (265 с.). Fəth Əli Şahın dövründə İran və Rusiya (fars dilində) // https://article.tebyan.net/244507

[2] Morshedloo, C. (2015). *Çar Rusiyasının Qafqazdakı mənfi inkişafının tarixi konteksti və strateji məntiqi (1550-1800).* Xarici Əlaqələr Tarixi. (Rüblük). № 64 (payız) (s. 45-71). (fars dilində).

[3] Бушев, П. П. (1978). *Посольство Артемия Волынского в Иран в 1715-1718 гг.* Москва.


www.SID.ir

Archive of SID


və I Pyotrun Xəzər dənizi haqqında topladığı informasiyalar Səfəvi dövlətini narahat etməyib.[1]

A.Volınski 1717-ci ildə İsfahanda rus tacirlərinin mənafeyinə uyğun müqavilə imzalamağa nail oldu. O, quru yolla Rəştə getmək, oradan gəmi ilə Həştərxana üzmək, beləliklə, Gilan haqqında da kəşfiyyat məlumatı toplamaq istəyirdi. Lakin şah hökuməti gec də olsa ayıldı, A.P.Volınskinin niyyətini başa düşdü və yalnız gəldiyi yolla qayıtmasına icazə verdi. 1717-ci il dekabrın 17-də rus səfiri Şamaxıya gəldi və yolların açılmasını gözləyərək 8 ay Şamaxıda qaldı. O, zamanda I Pyotrun göstərişinə əsasən Cənubi Qafqazın xristianları ilə görüşdü. Kartlinin gələcək çarı VI Vaxtanqın nümayəndəsi Farsadan bəy şəxsən A.P.Volınskinin yanına Şamaxıya gəldi. Daha sonra rus elçisi erməni tacirləri ilə görüşdü. Dərbənddən gələn həmin tacirlər A.P.Volınskiyə gizlicə Dərbənd qalasının planını da gətirmişdilər. Belə bir "hədiyyə"nin Pyotrun bu bölgəyə yürüşə hazırlaşdığı ərəfədə böyük hərbi siyasi əhəmiyyəti vardı.[2]

Beləliklə, A.P.Volınski Səfəvi dövlətində karvan yollarının vəziyyəti ilə tanış olub, gündəliyini zənginləşdirdi. Yalnız Şamaxıdan Həştərxana gedən yol öyrənilməmiş qalmışdı. Rusiya ilə sərhəd olan vilayətlərin karvan yolları haqqında məlumat toplamaq məqsədilə A.P.Volınski karvan yolu ilə öz dəstəsinin üzvlərindən birini – dvoryan A.Lopuxini göndərməyi qərarlaşdırdı. Rus dövlətinin elçisi A.Lopuxin karvan yolu ilə Rusiyaya göndərilməsinin səbəbini belə izah edirdi ki, guya İran şahının (Şah II Təhmasib) I Pyotr üçün hədiyyəsini – bir fili və iki bəbiri Həştərxana gəmi ilə göndərmək mümkün deyildir.[3]

A.Lopuxini yola salarkən A.P.Volınski ona xüsusi jurnal tərtib etməyi və həmin jurnala Niyazabad limanından Həştərxana gedən yolda müşahidə etdiklərini qeydə almağı tapşırmışdı. Beləliklə, A.Lopuxin 1718-ci il martın 10-da 30 nəfər əs-

---

[1] Бушев, П. П. (1978). *Посольство Артемия Волынского в Иран в 1715-1718 гг.* Москва; Keçeci, S. (October, 2016). *The Grand Strategy of the Russian Empire in the Caucasus against Its Southern Rivals (1821-1833).* A dissertation submitted to the Department of International History of the London School of Economics and Political Science for the degree of Doctor of Philosophy. London. http://etheses.lse.ac.uk/

[2] Бушев П. П. (1978). *Посольство Артемия Волынского в Иран в 1715-1718 гг.* Москва.

[3] Лысцов В. П. (1951). *Персидский поход Петра I: 1722-1723.* Москва: Изд. Моск.Ун-та.


www.SID.ir

Archive of SID


kərin müşayiəti ilə yola düşdü. A.P.Volınskinin özü isə şimali Azərbaycan torpağını 1718-ci il iyulun 25-də tərk etdi. Avqustun 1-də Həştərxana çatan A.P.Volınski birbaşa Peterburqa gedib, özünün səfəri barədə I Pyotra məlumat verdi. A.P.Volınskinin fəaliyyətindən razı qalan I Pyotr əvvəlcə ona polkovnik, sonra isə general-adyutant rütbəsi verdi. Xəzərboyu yürüşə hazırlaşan I Pyotr daha sonra A.P.Volınskini Həştərxana qubernator təyin etdi və qarşıdakı yürüş üçün, hazırlıq tədbirləri görməsini tapşırdı.

A.P.Volınskinin verdiyi informasiyalar Səfəvilər dövləti iqtisadiyyatının dərin tənəzzül keçirdiyini göstərirdi. Ölkəni xalq üsyanları bürümüşdü. Bu üsyanların şahidi olan A.P.Volınski gündəliyində belə qeydlər aparmışdı: "Burada (yəni Azərbaycanda) nadir yerlər qalmışdır ki, üsyan baş verməmiş olsun"[1].

1721-ci ildə Şirvanda baş verən üsyan zamanı rus tacirləri qarət edildi. Bu isə İsveçlə 20 ildən artıq apardığı müharibəni 1721-ci ildə qalibiyyətlə bitirmiş Rusiya hökumətinə Xəzərboyu Azərbaycan torpaqlarını işğal etmək məqsədini həyata keçirmək üçün bəhanə oldu. I Pyotr 1922-ci ilin yayında Həştərxandan iki istiqamətdə - quru və dəniz yolu ilə yürüşə başladı.

1722-ci il avqustun 23-də rus qoşunları Dərbəndə girdilər. Dərbənd Xəzər boyunca sahil yolunu əhatə etdiyi üçün strateji əhəmiyyətli bir şəhər idi. Amma I Pyotr bəzi səbəblər üzündən cənuba yürüşü saxlamalı oldu. Bunun səbəblərindən biri dənizdə baş vermiş güclü fırtına nəticəsində azuqə və ərzaq daşıyan gəmilərin əksəriyyətinin batması idi. Digər səbəb isə İsveçin Niştad sülh müqaviləsinin şərtlərini pozmağa cəhd göstərməsi idi. Osmanlı sarayının Rusiyanın bu yürüşündən narazı olması da I Pyotrun qayıtmasında az rol oynamamışdı. I Pyotr əsas qüvvələrlə birlikdə Həştərxana qayıtdı və burada 1723-cü il kampaniyasına hazırlıqlara başladı. Bu onun şəxsən iştirak etdiyi son hərbi kampaniya idi.

Sentyabrda VI Vaxtanq ordusu ilə Qarabağa girdi, burada üsyançı dağıstanlılara qarşı hərbi əməliyyatlar keçirdi. Gəncə ələ keçirildikdən sonra katolikos Yeşayanın başçılığı ilə erməni qoşunları da gürcülərə qoşuldu. Pyotru gözləyən gürcü-erməni ordusu Gəncə yaxınlığında iki ay dayandı, lakin Rusiya ordusunun Qafqazdan çıxması haqqında xəbər tutduqdan sonra Vaxtanq və Yeşaya qoşunları ilə birlikdə öz mülklərinə qayıtdılar.[2]

---

[1] *Azərbaycan tarixi*. (2007-2008). (Yeddi cilddə, cild III). Bakı. (s.387).
[2] Лысцов, В. П. (1951). *Персидский поход Петра I: 1722-1723*.


www.SID.ir

Archive of SID
*Beynəlxalq Metafizika Mərkəzi* *DOI 10.29228/metafizika.*
*Metafizika jurnalı* *ISSN 2616-6879 (Print)*
*2020, cild 3, say 2, sıra 10* *ISSN 2617-751X (Online)*

Yarımçıq qalan yürüş 1723-cü ildə yenidən davam etdi və Rusiya bütün Xəzərsahili torpaqları işğal etdi və bu torpaqlar 1732-ci ilə qədər, yəni Nadir xan Azərbaycan torpaqlarını işğalçılardan azad edənə qədər rusların əlində qaldı. İşğaldan dərhal sonra ermənilər I Pyotra müraciətlə "yeni əldə olunmuş torpaqlarda", xüsusilə də Bakıda onlar üçün yer ayırmağı xahiş etdilər. Ermənilərin müraciəti I Pyotrun ürəyincə oldu. Onsuz da bu yerlərdə o, ilk növbədə xristianlara, xüsusilə ticarət aləmində fəallıq göstərən erməniləri görmək istəyirdi. Rus tarixçisi P.Butkov yazır ki, 1724-cü il İstanbul müqaviləsindən sonra I Pyotr briqadir Rumyantsevə tapşırmışdı ki, erməniləri Xəzərboyu əyalətlərdə istədikləri şəhərlərdə yerləşdirmək gərəkdir, lazım gələrsə, yerli əhalini qovub, erməniləri həmin yerlərdə məskunlaşdırsın[1].

I Pyotr cənub sərhədlərində erməniləri yerləşdirməklə iki məqsəd güdürdü: həm cənubdan qismən ərazi əmin-amanlığını təmin etsin, həm də ticarətdə olan ermənilərin xidmətindən faydalansın. Ümumiyyətlə, Dərbənddən Mazandarana kimi bütün Xəzərboyu əyalətlərdə erməniləri yerləşdirmək nəzərdə tutulmuşdu. Elə ki İran yaxud Türkiyənin mövqeləri zəifləməyə başladı, Rusiya taxtında əyləşənlər hər bir bəhanə ilə Cənubi Qafqazda öz mövqelərini genişləndirməyə çalışırdılar. Burada XVIII əsrin əvvəllərində İosif Arqutinski Gürcüstanın Rusiyaya qoşulmasından (yenə də burada erməni əlinin olması real bir faktdır!) böyük canfəşanlıqla "erməni çarlığının" bərpası işi ilə məşğul olmağa başladı. Onun qəfil ölümü bu işlərə son qoysa da, I Aleksandrın elçisi olan Sisianov Rusiyanın iddialarını reallaşdıraraq neçə günahsız adamın (müsəlmanların) qanını tökmüşdür. Növbəti 20-30 il ərzində, xüsusilə I Pyotrun imzaladığı fərmandan sonra (10 noyabr 1724-cü il tarixində) Azərbaycan ərazisinə kütləvi şəkildə ermənilərin Türkiyə və İran ərazilərində köçürülmə prosesi başlandı[2].

I Pyotrun işğal etdiyi Xəzər sahili torpaqlara aid böyük planları var idi: Kür çayının mənsəbində Peterburq kimi bir şəhər salmaq fikrində idi[3]. Bu torpaqların təbii sərvətləri – neft, xam ipək, pambıq, yun,təbii boyalar, tikinti materialları, metal və s. rusları xüsusi olaraq maraqlandırırdı. 1703-cü ildə I Pyotrun yanına gəlmiş er-

---

[1] *Azərbaycan tarixi.* (2007-2008). (Yeddi cilddə, cild III). Bakı. (s.402).

[2] Вердиева Х. & Гусейнзаде Р. (2003). *«Родословная» армян и их миграция на Кавказ с Балкан.* Баку: Элм; Verdieva Khajar. (2005). *The Russian Empire's migration policy in the Caucasus.* The Caucasus & Globalization Journal. vol. 1 (7), (p.p.129-136)

[3] *Azərbaycan tarixi*. (2007-2008). (Yeddi cilddə, cild III). Bakı. (s.395).


www.SID.ir

Archive of SID


məni əsilli İsrael Ori adlı bir fitnəkar çarın işğalçı planlarını daha da alovlandırır. O, Yaxın və Orta Şərqin saxta bir xəritəsini tərtib edərək I Pyotra təqdim etdi. Bu "xəritədə" Azərbaycanın qərb, Gürcüstanın cənub, Osmanlı dövlətinin şərq torpaqları erməni əraziləri kimi qələmə verilirdi[1]. I Pyotr ermənilərə verdiyi vədi yerinə yetirdi: 1724-cü ildə ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi haqqında xüsusi əmr verdi. Əmrdə deyilirdi: "Erməni xalqı bizdən xahiş etmişdir ki, biz onları öz himayəmizə qəbul edib torpaqlar ayıraq, ona görə də sizə tapşırıram ki, əgər erməni xalqı bəyəndiyi yerdə yaşamaq istəsə, ona kömək edib ləyaqətlə qoruyun, elə rəftar edin ki, onlardan heç bir şikayət eşidilməsin, çünki biz burada erməni xalqını imperatorluq qayğısı ilə əhatə edib öz himayəmizə götürmüşük"[2].

1725-ci ildə I Pyotrun ölümü və Rusiyada taxta səviyyəsiz hökmdarların çıxması ilə əlaqədar olaraq I Pyotrun Azərbaycan haqqında planlarını bir müddət gecikdirdi. Onun arzularını II Yekaterina və Aleksandr həyata keçirdilər. İsrael Orinin verdiyi saxta informasiya bütöv bir regionun tarixini dəyişdi. Orinin Rusiya dövlətinə istiqamətlənməsinin ardınca bütün ermənilərin dini və dünyəvi elitası qəti olaraq Rusiyaya tərəf yönəldi. Qarabağdan olan Katolikos Nerses 1723-cü ildə I Pyotra yazdığı məktubda belə deyirdı: "... bütün xalqımız bizi gecə-gündüz qəddarcasına qovan, bizi qarət və qətl edən, əsir edən kafirlərin əlindədir, nə qədər adamımız dağlara qaçaraq gizlənir və orada ac-susuz yaşayır, amma bizim ən əvvəl Allaha və sonra Əlahəzrətə ümidimiz var və Əlahəzrətdən başqa bir kimə ümidimiz yoxdur, bunun üçün sizdən xahiş edirik ki, bizi bu əzabdan azad edib qoruyasınız. Böyük peyğəmbər Musa xalqını fironların əlindən azad etdiyi kimi bizi də barbarların əlindən azad edəsiniz ..."[3]. I Pyotrun dövründən bəri, Cənubi Qafqaz Rusiya üçün bu gün də aktual olan ən vacib hərbi-strateji əhəmiyyətə malik olan bir ərazidir.

## *Rusiyanın Qafqazda XVIII əsrdən sonrakı siyasəti*

XIII –XIX əsrin hüdudlarında Şimali Azərbaycan xırda feodal dövlətlərə - xanlıqlara bölünmüşdü. Bu xanlıqlar arasında gedən sonu görünməyən ara müharibələri nəticəsində ölkədə iqtisadi tənəzzül hökm sürürdü. Bu dövrdə, xüsusilə II Ye-

[1] Мамедли, Э. (2010). *Карабахская сага*. (В 2-х томах, Том 1). От Петра до Павла. Москва: Новости.
[2] *Azərbaycan tarixi*. (2007-2008). (Yeddi clddə, cild III). Bakı. (s.403).
[3] Yusifov, Y. (2007). *Qədim Şərq tarixi*. Bakı. (s.409-410).


www.SID.ir

Archive of SID
*Beynəlxalq Metafizika Mərkəzi* *DOI 10.29228/metafizika.*
*Metafizika jurnalı* *ISSN 2616-6879 (Print)*
*2020, cild 3, say 2, sıra 10* *ISSN 2617-751X (Online)*

katerinanın hakimiyyəti illərində, Cənubi Qafqazın istilası Rusiya xarici siyasətinin əsas istiqamətlərindən biri hesab olunurdu. II Yekaterina hökuməti I Pyotrun siyasətini davam edərək Xəzəri Rusiyanın daxili dənizinə çevirməyə, Azərbaycanı işğal edərək onun təbii sərvətləri hasabına Rusiya sənayesini xammal və yanacaq ilə təmin etməyə can atırdı. Avropa dövlətlərinin bu bölgəyə maraq göstərməsi Rusiyanı tələsməyə məcbur edirdi.

Ermənilər də fəaliyyətlərinə ara vermədən Rusiyanı Cənubi Qafqazın işğalına təhrik edirdilər. 1845-ci ildə Qarabağı idarə edən rus hakiminin xahişi ilə Qarabağın 1736-cı ildən 1828-ci ilə kimi siyasi tarixini yazan rus ordusunun kapitanı Mirzə Adıgözəl bəy “Qarabağnamə“ əsərində buradakı erməni əhalisi haqqında belə yazır: “Xəmsə adı ilə məşhur olan beş mahalın hər birinin ayrı adı vardır. Bu mahalların sayı beş olduğundan, onlara Xəmsə adı verirlər; çünki ərəb dilində beş ədədinə xəmsə deyirlər.

Bu mahalların biri - Dizaqdır. Məlikləri Məlik Yegan adlanır. O, Loridən qaçıb gəlmiş, Nadir şahın səltənəti dövründə və onun əmrilə məliklik taxtında oturub hörmət qazanmışdır.

İkincisi – Vərəndədir. Məlikləri Məlik Şahnəzərlilər olmuşdur. Onlardan daha qədim bir nəslə mənsub və daha çox etibar sahibidirlər. Əsilləri də Göyçə əsilzadələrindəndir. Sonra oradan qaçaraq gəlib Qarabağda Vərəndə mahalının məliklik camından sərxoş olmuşlar.

Üçüncü - Xaçındır. Məlikləri Həsən Cəlalyan övladıdır. (Onlar) riyasət gəlininə gözəllik verib, (hökmdar olmuşlar). Bu ailə məliklik mənsəbindən məhrum olduqdan sonra, bu mahalın müstəqil bir məliki olmamışdır. Buna görə, məliklik pərisi hər an bir şəxsin məclisinin saqisi olmuş və hər vaxt bir hərifi sərxoş etmişdir. Axırda, mərhum Pənah xan Cavanşirin dövlət günəşi və şövkət bayrağı riyasət üfüqündən baş vurub Qarabağ vilayətinin bütün sahəsini calal və dəbdəbə ilə işıqlandırdı. Bu zaman xınzırıstanlı Məlik Mirzə xan özünün gözəl iradə və sədaqətli əqidəsinə görə, bu əbədi dövlət məmurlarının əmrilə məliklik sikkəsini gümüş kimi saf olan adına kəsdirdi. Ondan sonra da oğlu Məlik Allahverdi və nəvəsi Məlik Qəhrəman “Hər kəsin növbəti beş gündür” misrasının məzmununca, məliklik bayrağını göylərə qaldırdılar.

Dördüncü - Çiləbörd mahalıdır. Məlikləri Məlik Allahquludur. Əsilləri Mağa-


www.SID.ir

Archive of SID


vizdən gəlmədir. Bunlar gəlib Çiləbörddə məlik olmuş, Tərtər çayının ortasında vaqe ən möhkəm bir məmləkətdə yerləşmişlər. Çox çətin bir yolu olan Cermux (Cermux – Çiləbördün müxtəsər adıdır) qalasını özlərinə məskən, sığınaq və mənzil etmişlər. Çiləbördə müstəqil olaraq yiyələnmiş və böyük bir şöhrət qazanmışlar. Nadir şahla osmanlı sərəskəri Köprülü oğlu Abdullah paşa arasında olan müharibədə, Məlik Allahqulu çox şücaət və igidlik göstərdi. Nadir şah da məliklik xələtini onun qabiliyyətli vücuduna layiq görmədi, ona sultanlıq rütbəsi və xələti verdi. O (Nadir şah), əmr etdi ki, bundan sonra xas və avam camaat ona məlik deyil, sultan desin. Doğrudan da onlar dəbdəbəli qədim bir ocağa (ailəyə) mənsub imişlər.

Beşinci – Talış mahalıdır. Məlikləri Məlik Usubdur. Əsilləri Şirvandan gəlmədir. Bir müddət Talış kəndində sakin olmuşlar. Onlardan bir çoxu dəfələrlə məliklik etmişdi. Sonralar Məlik Usub Gülüstan qalasını zəbt edib orada sakin olmuşdu”.[1]

Mənbədən göründüyü kimi, məlikliklərin əhalisi mənşəcə Qarabağdan deyildilər, onlar bu əraziyə Azərbaycanın başqa yerlərindən köçüb gəlmişdilər. Mənbədə adı çəkilən Xaçın məliklərinin əsil-nəsəbi erməni dinini qəbul etmiş qriqoryan (xristian) albanlar olmuşlar.[2]

Amma erməni tarixçiləri bu tarixi informasiyanı saxtalaşdırlar. Məsələn, onlar öz tarixi araşdırmalarında XIX əsrdə yazılmış “Qarabağnamələr”dən geniş istifadə edirlər, lakin, ancaq özlərinə sərf edən yerlərindən sitatlar gətirirlər. Mirzə Camal Cavanşir öz “Qarabağın tarixi“ əsərində yazır: “Mərhum Pənah xanın əsl-nəsəbi Qarabağın Cavanşir elindəndir. Bu el qədim zamanlarda Türküstandan gəlmiş Bəhmənli elinin bir qolu olan Sarıcalı oymağındandır. Bunların ata-babaları Cavanşir eli arasında məşhur, adlı-sanlı, çörəkli, mal-dövlət və ehsan sahibi olmuş adamlar idilər”.[3] Erməni tədqiqatçısı Artak Maqalyan “Arsax məlikləri və Qarabağ xanlığının yaranması“ əsərində bu informasiyadan dəfələrlə istifadə edərək Pənahəli xanın Qarabağla heç bir əlaqəsi olmayan bir köçəri tayfanın lideri olduğunu Qarabağ xanlığının hər üç tarixçisinin açıq şəkildə yazdığını dönə-dönə vurğulayır.[4]

Amma Mirzə Adıgözəl bəyin “Qarabağnamə”sində Dizaq məliki Yeganın Qarabağa Loridən qaçıb gəlməsi, Vərəndə məliki Şahnəzərin Göyçədən, Çiləbörd

[1] *Qarabağnamələr.* (2006). (I kitab). Bakı. (s.43).
[2] *Azərbaycan tarixi.* (1994). (2 cilddə. I cild). Bakı. (s.534).
[3] *Qarabağnamələr*. (2006). (I kitab). Bakı. (s.125).
[4] Магалян, А. *Арцахские меликства и возникновение Карабахского ханства*. https://regnum.ru/news/cultura/1233462.html


www.SID.ir

Archive of SID
*Beynəlxalq Metafizika Mərkəzi* **DOI 10.29228/metafizika.**
*Metafizika jurnalı* **ISSN 2616-6879 (Print)**
*2020, cild 3, say 2, sıra 10* **ISSN 2617-751X (Online)**

məliki Allahqulunun Mağavizdən, Talış məliki Usubun Şirvandan qaçaraq Qarabağa gəlməsi və Nadir şaha qulluqlarına görə Qarabağda məliklik əldə etmələri haqqında verilən informasiyaya qarşı erməni müəlliflər görməməzlikdən gəlirlər. Məşhur rus tarixçisi V.L.Veliçko yazırdı: "Səhvən erməni adlandırılan, əslində isə erməni-qriqorian təriqətini qəbul edən və yalnız üç-dörd əsr əvvəl ermənniləşmə prosesinə qədəm qoyan əhali müstəsnalıq təşkil edirdi."[1] Qarabağ məlikləri hələ Nadir şahın sağlığında, onun Türkiyəyə qarşı apardığı müharibədə vuruşur, onun qoşununu ərzaqla təmin edir, dövlətin bütün imtiyazlarından istifadə edirdilər. Onların öz silahlı qüvvələri var idi. Türkiyə ilə müharibədə göstərdikləri "xidmətlərə" görə Nadir şah onlara imtiyazlar və sərbəstlik vermişdi. Pənahəli xan özünü 1748-ci ildə xan elan etdi və Bayat qalasını tikdirdi. Bu əlbəttə ki, məliklərin narazılığına səbəb oldu. Onlar Şəki xanı Hacı Çələbiyə məktub göndərib ona bildirdilər ki, "Pənah xan burada taxta çıxmış, qala və səngər tikdirmişdir. Əgər dəfində bir qədər təxir edilərsə, sonra onun qarşısında durmaq mümkün olmayacaqdır".[2]

XVIII əsrin 50-ci illərində məliklərin müqaviməti sındırıldı və onlar xanlığa tabe edildi. 1783-cü ildə Georgiyevsk traktatı bağlandıqdan sonra Rusiya Kartli çarlığını öz himayəsinə götürdü. Rusiya dövlətinin Qafqazdakı nümayəndəsi P.S.Potyomkinin imzası ilə qonşuluqda yerləşən bütün Azərbaycan xanlıqlarına hədə-qorxu ilə dolu məktublar göndərildi. Məktubda onlar II İraklini müdafiə etməyə çağırılırdılar. Qarabağ xanlığında İbrahimxəlil xanın əleyhinə olan məliklər onu taxtdan salmaq məqsədilə Potyomkinə bildirdilər ki, Qarabağda xan hakimiyyəti devrildikdən sonra onlar Rusiyanın himayəsi altında burada xristian dövləti yaradılması arzusundadırlar. Bundan xəbər tutan İbrahimxəlil xan diplomatik addım ataraq II Yekaterina hökumətinə bildirdi ki, o, Rusiya dövlətinin himayəçiliyini qəbul etməyə hazırdır. II Yekaterina Potyomkinə aşağıdakı məzmunda məktub göndərdi: "...Yaxşı olardı ki,

---

[1] Hamilton Rhinelander, L. (Summer-Fall, 1975). *Russia's Imperial Policy: The Administration of the Caucasus in the First Half of the Nineteenth Century*. Canadian Slavonic Papers. Revue Canadienne des Slavistes. (Vol. 17, No. 2(3)), RUSSIAN AND SOVIET CENTRAL ASIA. (pp. 218-235).

[2] Величко, В. Л. (1990). *Кавказ.* Русское дело и междуплеменные вопросы. Баку: Элм. (s.40).


www.SID.ir

Archive of SID


mənə onun kim olduğunu bildirəsən: necə olub ki, xan rütbəsinə çatmışdır, cavandır, ya qoca, qüvvəsi nə vəziyyətdədir"[1].

İbrahimxəlil xan atası Pənahəli xan kimi mübarizə apararaq bütün məlikləri özünə tabe etdi. Lakin, II Yekaterina İbrahimxəlil xana hər hansı bir hərbi kömək etməyə tələsmirdi. Bunun səbəblərindən biri də Şuşa qalasında olan məliklərin zindandan qaçıb Tiflisə getmələri və II Yekaterinaya müraciətləri idi ki, İbrahimxəlil xana kömək etməsin. Şərq siyasətini həyata keçirmək, yerli müsəlman hökmdarlarına qarşı mübarizədə bölgənin xristian əhalisindən dəstək almaq məqsədilə II Yekaterina Azərbaycan torpaqları hesabına "erməni dövləti" yaratmaq istəyirdi. Əgər 1796-cı ildə II Yekaterina vəfat etməsəydi və V.Zubovun hərbi yürüşü müvəffəqiyyətlə nəticələnsəydi, Qarabağ məlikləri yəqin ki, öz arzularına çatmış olardılar və Rusiyanın himayəsinə keçərdilər.

1787-ci il Georgiyevsk müqaviləsi bağlandıqdan sonra Ağa Məhəmməd xan Qacar Rusiyanın Cənubi Qafqazı işğal etmək planını pozmaq üçün bəzi tədbirlər görməyə başladı. Səfəvi dövlətinin sərhədlərini bərpa etmək istəyən Ağa Məhəmməd xan Qacar Rusiya ilə yaxınlaşan gürcü çarını və ona itaət etməyən şimal xanlıqlarını cəzalandırmaq üçün 1795-ci ildə Cənubi Qafqaz üzərinə hücuma keçdi. Qacar ordusu Tiflisi tutdu. Ağa Məhəmməd xanın Cənubi Qafqaza dağıdıcı yürüşündən sonra Rusiya Cənub sərhədlərini qorumaq və Xəzər dənizindəki mövqeyini saxlamaq, habelə 1783-cü il Georgiyevsk müqaviləsinin şərtlərinə əməl etmək məcburiyyəti qarşısında qaldı. 1795-ci ilin noyabr ayında rus qoşunları Cənuba doğru hərəkət etməyə başladı. 1796-cı il aprelin 18-də V.Zubovun başçılığı ilə rus qoşunları Azərbaycana qarşı yürüşə başladı.

Dərbəndi müdafiə edən Şeyxəli xan digər Azərbaycan xanlıqlarından kömək istədi, amma kömək edən olmadı. Rus ordusunun toplarından atılan atəşlə qala divarlarının zədələnməsi Şeyxəli xanı təslim olmağa vadar etdi. Tarixi mənbələrə görə şəhərdəki ermənilərin satqınlığı da bu işdə az rol oynamamışdı[2]. Həmin ilin oktyabr ayına kimi Dərbənd, Quba, Bakı, Gəncə şəhərləri işğal olundu. Qacar Azərbaycanı tərk etməyə məcbur oldu. Azərbaycanda olan feodal dağınıqlığı, hərc-mərclik və ara müharibələri nəticəsində torpaqlarımız asanlıqla işğal olundu[3].

[1] *Azərbaycan tarixi.* (2007-2008). (Yeddi cilddə, cild III). Bakı. (s.465).
[2] *Yenə orada.* (s.472).
[3] *Fəth Əli Şahın dövründə İran və Rusiya*. (fars dilində). https://article.tebyan.net/244507


www.SID.ir

Archive of SID
Beynəlxalq Metafizika Mərkəzi DOI 10.29228/metafizika.
Metafizika jurnalı ISSN 2616-6879 (Print)
2020, cild 3, say 2, sıra 10 ISSN 2617-751X (Online)

1796-cı il noyabrın 6-da II Yekaterinanın qəfil ölümü Rusiya dövlətinin nəzərdə tutduğu tədbirlərin həyata keçirilməsini bir müddət təxirə saldı.Yeni çar I Pavel Rusiya qoşunlarının tezliklə Cənubi Qafqazdan geri dönməsi barədə əmr verdi. Rusiyanın Azərbaycanın şimal torpaqlarını işğal etmək siyasətinə qarşı çıxan Ağa Məhəmməd şah Qacar 1797-ci ildə yenidən şimala yürüş etdi. Qarabağ, Şamaxı, Bakı və Gəncə xanlıqlarını tabe etdi. 1797-ci ilin yayında Şuşada sui-qəsd nəticəsində öldürülməsi onun planlarını yarımçıq qoydu. Qacar ordusu Azərbaycanın şimal torpaqlarından geri çəkildi.

1801-ci ildə imperator I Aleksandrın hakimiyyətə gəlməsi ilə Rusiyanın Cənubi Qafqazı ələ keçirmək planı yenidən gündəmə gəldi. I Aleksandr Qərbi Avropa ölkələrinin Cənubi Qafqaza və İrana olan marağını nəzərə alaraq hərəkətə keçdi. 1801-ci il sentyabrın 12-də Kartli-Kaxetiya çarlığının Rusiyaya birləşdirilməsi haqqında çar manifesti elan olundu. Rus qoşunlarının baş komandanı və mülki hakim tərəfindən idarə olunan Tiflis quberniyası yaradıldı. Azərbaycan ərazisinin bir hissəsi – Kartli-Kaxetiya çarlığının vassal asılılığında olan və onunla birlikdə Rusiyaya birləşdirilmiş Qazax, Borçalı, Şəmşəddil sultanlıqları bu quberniyanın tərkibinə daxil edildi. Gürcüstanın Rusiyaya birləşdirilməsi ilə Azərbaycan torpaqlarının Rusiya tərəfindən iştilasının başlanğıcı qoyuldu. 1802-ci il dekabr ayında Georgiyevsk şəhərində bağlanan müqaviləyə görə, onu imzalayanlar öz xahişlərinə görə ... Rusiya ... himayəsinə" qəbul olunurlar[1].

1802-ci ildə qafqazlı general P.D.Sisianov Qafqazın Baş Komandanı təyin olundu. Sisianov qafqazlı olsa da, 1803-cü ildə Car-Balakənin və 1804-cü ildə Gəncənin işğalı zamanı onun Azərbaycan xalqına nifrətedici və amansız münasibəti aşkara çıxdı. Sisianov 1803-cü il noyabrın 30-da Gəncə ermənilərinin namərdliyindən istifadə etmək niyyətilə onlara belə müraciət göndərmişdi: "... Hamınızı əmin edirəm ki, Ümumrusiya taxt-tacının müdafiəsinə qalxan hər kəs özünün və əmlakının təhlükəsizliyinə tam təminat alacaq, müsəlmanların soyğunçuluğundan, hər cür təqib və sıxışdırmalarından canınız qurtaracaq. Sizə Gürcüstanın hər hansı bir guşəsində Rusiya dövlətinin sakini kimi asudə yaşamaq hüququ veriləcəkdir[2]. Sisianovun işğalları 1804-cü ildə İranın Rusiyaya müharibə elan etməsinə səbəb oldu və bu müharibə

[1] *Azərbaycan tarixi.* (2007-2008). (Yeddi cilddə, cild IV). Bakı. (s.16).
[2] *Azərbaycan tarixi*. (1994). (İki cilddə, I cild). Bakı: AMEA. (s.571)


www.SID.ir

Archive of SID


10 il davam etdi. Azərbaycanın yerli əhalisinin müharibəyə münasibəti eyni cür deyildi. Feodalların bir hissəsi İranı, bir hissəsi isə Rusiyanı dəstəkləməklə öz hakimiyyətlərini qoruyub saxlayacaqlarından əmin idilər. Bəzi xanlar Rusiyanın təbəəliyini qəbul etdilər.

14 may 1805-ci ildə Rusiya İmperiyası ilə Qarabağ xanlığı arasında Kürəkçay müqaviləsi imzalandı. Müqaviləyə görə xan, onun varisləri və xanlığın bütün əhalisi Rusiya təbəəliyinə qəbul olunur və onların üzərinə rus çarına sadiq qalmaq təhəddüdü qoyulurdu. Çar isə, öz növbəsində, xan sülaləsinin hüquqlarını "bütün zamanlar üçün" təsdiq edirdi[1]. Şəki xanı da müqaviləni imzaladı. Xanlıqlara daxili muxtariyyət hüququ verildi. Bu çarizmin müvəqqəti tədbiri, hiyləgər planının bir hissəsi idi. Müqavilənin 11 maddəsinin heç birində Qarabağın xristian məlikləri haqqında bir sətir belə yoxdur. Bu onu göstərir ki, Rus çarları öz məqsədlərinə çatmaq üçün onlardan maşa kimi istifadə etdi, onlara verdiyi vədini yerinə yetirmədi.

10 il sürən müharibə Rusiyanın qələbəsi və Gülüstan sülhü ilə nəticələndi. Bu müqavilə Azərbaycanın Rusiya tərəfindən iki yerə bölünməsinin başlanğıcı oldu. Müqaviləyə görə İrəvan və Naxçıvan xanlıqları çıxmaq şərti ilə Araz çayından şimalda yerləşən bütün ərazilər Rusiyanın tərkibinə qatıldı. Xəzər dənizində donanma saxlamaq hüququ yalnız Rusiyaya məxsus idi[2].

İran dövləti bu müqavilənin şərtləri ilə qətiyyən razı deyildi. İngiltərə və Fransa dövlətləri də Rusiyanın Cənubi Qafqazda möhkəmlənməsini istəmirdilər, İranı Rusiya ilə müharibəyə açıq və ya gizli şəkildə təhrik edirdilər. Nəticədə, 1826-cı ildə ikinci Rusiya-İran müharibəsi başlandı. Bu müharibə iki il çəkdi və İranın məğlubiyyəti ilə başa çatdı. 1828-ci il fevralın 10-da Türkmənçayda imzalanan müqaviləyə görə İrəvan və Naxçıvan xanlıqları Rusiya tərəfindən ilhaq edildi. Azərbaycan torpaqları iki hissəyə bölündü. İngiltərə və Fransa İranı bu müharibəyə təhrik etsə də, öz qoşunlarını müharibəyə daxil edib real yardım göstərmədilər. Əvəzində Osmanlı dövlətini Rusiya ilə müharibəyə təhrik etdilər. Lakin bu müharibə də Rusiyanın qələbəsi ilə başa çatdı.

1829-cu il Ədirnə sülh müqaviləsinə görə Türkiyə Qara dənizin bütün Şərq sa-

---

[1] *Azərbaycan tarixi.* (2007-2008). (Yeddi cilddə, cild IV). Bakı. (s.2).

[2] Morshedloo, C. (payız, 2015). *Çar Rusiyasının Qafqazdakı mənfi inkişafının tarixi konteksti və strateji məntiqi (1550-1800).* Xarici Əlaqələr Tarixi. (Rüblük),( № 64). (s. 45-71). (fars dilində).


www.SID.ir

Archive of SID
Beynəlxalq Metafizika Mərkəzi DOI 10.29228/metafizika.
Metafizika jurnalı ISSN 2616-6879 (Print)
2020, cild 3, say 2, sıra 10 ISSN 2617-751X (Online)

hillərini və başqa əraziləri Rusiyaya güzəştə getdi. Rusiya-İran müharibələrində qazanılan qələbəyə görə ruslar müəyyən qədər ermənilərə borcludurlar. Ermənilər rusların qalib gəlməsi üçün əllərindən gələn hər bir şeyi edirdilər. Məsələn, rus qoşunlarının baş komandanı Paskeviçin yazdığı kimi, ”İrəvan vilayətində 10 min müsəlman və ancaq 3 min erməni ailəsi var idi. ...ermənilər rus qoşununa hər cür yardım göstərirdilər. Qala divarları üstündə görünən ermənilər papaqlarını yellədərək işarə edirdilər ki, ”təslim” olurlar. Onlar xəyanət edərək qalanın şimal darvazalarını açdılar və oktyabrın 1-də rus qoşununun qalaya buraxdılar”[1]. Elə həmin gün qanlı döyüşlərdən sonra rus qoşunu İrəvan qalasını ələ keçirdi.

Türkmənçay müqaviləsinin 15-ci maddəsi ermənilər üçün müharibələrdə etdiyi satqınlıqlara görə çarizmin onlara verdiyi ən böyük hədiyyə oldu.[2] Bu maddədə deyilir: “Şah həzrətləri öz dövlətinə sakitliyi qaytarmaq və öz təbəələrindən hazırki müqavilə ilə bu qədər xoşbəxtliklə başa çatmış müharibədə törədilmiş bədbəxtlikləri daha da artıra bilən hər şeyi kənar etmək kimi xeyirli, xilasedici niyyətlə hərəkət edərək, Azərbaycan adlanan vilayətin bütün əhalisinə və məmurlarına büsbütün və tam bağışlanma əta edir. Hansı dərəcəyə məxsus olmasından asılı olmayaraq, onlardan heç kəs öz hərəkətinə və ya müharibə ərzində və ya Rus ordusunun adı çəkilən vilayəti müvəqqəti tutduğu zaman davranışına görə təqibə, dini əqidəsinə görə təhqirə məruz qalmamalıdır. Bundan başqa o məmur və sakinlərə bu gündən başlayaraq öz ailəsi ilə birlikdə İran vilayətindən Rusiyaya sərbəst keçmək, hökumət və yerli rəisliyin heç bir maneçiliyi olmadan onların satlıq malına və ya əmlakına və əşyalarına hər hansı gömrük və vergi qoyulmadan tərpənən mülkiyyətini aparmaq və satmaq üçün bir il vaxt verilir. Tərpənməz mülkə gəldikdə isə, onun satılması və ya onun haqqında özxoşuna sərəncam üçün beş illik müddət müəyyən edilir. Lakin bu bağışlanma qeyd olunan bir illik müddət başa çatanadək məhkəmə cəzası düşən günah və ya cinayət işləmiş adamlara şamil edilmir”[3].

15-ci maddədə “bağışlanma əta olunanlar” Rusiya ilə aparılan müharibələrin gedişində şah hökumətinə xəyanət edən, rus ordusunun uğur qazanması üçün onlara çuğulluq edib hər cür yardım göstərən ermənilər idi.

---

[1] *Azərbaycan tarixi*. (2007-2008). (Yeddi cilddə, cild IV). Bakı. (s.49).

[2] Мамедли, Э. (2010). *Карабахская сага*. (В 2-х томах. Том 1). От Петра до Павла. Москва: Новости. (376).

[3] *Türkmənçay müqaviləsi*. https://azerbaijan.az/portal/History/


www.SID.ir

Archive of SID


Ermənilərin Cənubi Qafqaza yerləşdirilməsi 1804-cü ildən başlayaraq mərhələ-mərhələ həyata keçirilirdi. 1804-cü ildə 105 erməni ailəsi, 1805-ci ildə isə 1300 erməni ailəsi Yelizavetpol qəzasına köçürülmüşdü. General Sisianov hətta 1600 aysoru da Şimali Azərbaycanda yerləşdirmişdi.Yalnız P.D.Sisiyanov 1804-cü ildə Şimali Azərbaycana 16 min aysoriləri dəvət edir.[1]

## *Nəticə*

Əlbəttə, çarizmin köçürmə siyasətinin səbəbi təkcə I Pyotrun erməni xalqına verdiyi vəd ola bilməz. Xristianları (ilk növbədə erməniləri), aysorları Cənubi Qafqaza Türkiyədən, İrandan köçürməkdə çarizmin bir sıra məqsədləri var idi. İşğal olunmuş ərazidə yaşayan əhalinin mütləq çoxluğunu müsəlmanlar təşkil etdiyindən Rusiya İran və Türkiyəyə meyl göstərməyən, rusyönümlü qeyri-müsəlmanları bu torpaqlarda yerləşdirməklə özünə etibarlı dayaq yaratmaq istəyirdi. Erməniləri əsasən İran və Türkiyə sərhəddində yerləşdirən Rusiya həm də bu dövlətlərdə işğal olunmuş ərazilərdə yaşayan müsəlman əhali arasındakı əlaqələri zəiflətmək məqsədinin güdürdü.

Çar Rusiyası Cənubi Qafqazın işğalı zamanı ermənilərin “xidmətlərindən” istifadə etdi, amma onlara verdiyi vədi, yəni erməni dövləti qurmaq vədini yerinə yetirmədi. Bununla belə ermənilər öz kilsəsinin xarici agentlərindən, Rusiyaya köçüb gedən erməni mənşəli məmurların dəstəyindən, Cənubi Qafqazda və bu bölgənin digər qonşu ərazilərində yaşayan həmvətənlərin satqınlığından istifadə edərək öz dövlətini yaratmaq iddiasından dönmürdülər. I Pyotrun Cənubi Qafqaza yürüşündən keçən iki əsr ərzində Şimali Azərbaycan torpaqlarında mərhələ-mərhələ yerləşdirilən ermənilər (erməni əhalisi olan əraziləri Roma və Sasanilər dövləti arasında bölüşdürüldükdən sonra) 1918-ci ildə, Qərbi Azərbaycanın etnik-tarixi torpaqlarında özlərinə dövlət qurmuş, hətta sonralar Sovet rejiminin əli ilə Qarabağ ermənilərinə muxtariyyət də yarada bilmişlər. 1988-ci ildən başlayaraq indiki Ermənistan və Dağlıq Qarabağın erməni terrorçu, separatçı qüvvələri Azərbaycanın 20% ərazisini işğal etmiş, 30 min insanı məhv və 50 min adamı şikəst edərək 1 milyon azərbaycanlını ata-baba yurdundan qaçqın etmişdi. Dünyada hal-hazırda baş verən siyasi hadisələr göstərir

[1] Вердиева, Х. & Гусейнзаде, Р. (2003). *Родословная армян и их миграция на Кавказ с Балкан.* Баку: Элм.


www.SID.ir

Archive of SID
*Beynəlxalq Metafizika Mərkəzi* *DOI 10.29228/metafizika.*
*Metafizika jurnalı* *ISSN 2616-6879 (Print)*
*2020, cild 3, say 2, sıra 10* *ISSN 2617-751X (Online)*

ki, fövqəl güclər arasında formalaşan münasibətlər sabit deyil. Çoxqütblü dünya şəraitində ayrı-ayrı rejimlərə dəstək olan dövlətlərin siyasətində strateji prioritetlər dəyişir, bu da, öz növbəsində dünya nizamına öz təsirini göstərir. İstənilən halda sağlam düşüncə və qarşılıqlı fayda baxımından vəziyyətin dəyişilməsi qaçılmazdır.

Cənubi Qafqazda yaşayan xalqların tarixi müqəddəratı çox vaxt qonşu və digər ərazilərdə yerləşən böyük ölkələrin maraq dairəsində olduğu üçün onlar tərəfindən həll olunub "təmin" edilirdi. Hər bir ölkə ilk növbədə öz strateji maraqlarını yerinə yetirmək üçün müəyyən siyasi gedişlərlə milli nifaq salmış, ziddiyyətlər yaratmışdır ki, nəticədə öz məqsədlərinə nail olsun. Ermənilər isə bu ölkələrin aralarında yaranmış ziddiyyətlərdən faydalanmağa çalışmışlar. Dünyanın bütövləşməsi və qarşılıqlı asılılığı bu cür "taktikaların" reallaşmasını getdikcə daha çətin edir. Bunu Ermənistanın indiki təcrid vəziyyətindən də görmək olar.


www.SID.ir

Archive of SID



### *Ədəbiyyat*


1. *Azerbaycan tarixi*. (1994). (Iki cildde, I cild.). Baki.

2. *Azerbaycan tarixi*. (2007-2008). (Yeddi cildde, III-IV cildler). Baki.

3. *Azerbaycan tarixi*. (2019). Bakı.

4. Bayramzade, S. (2014). *Turkmenchay muqavilesi: acılmamıs sehifeler (təhrif edilmiş coğrafi yer adları) – Güney Azerbaycan: tarix ve muasirlik*. Baki: “Zerdabi” nesriyyati. (s.139-160)/

5. *Fəth Eli Sahin dovrunde İran ve Rusiya* (fars dilinde) https://article.tebyan.-net/244507

6. Hamilton Rhinelander, L. (Summer and Fall, 1975). *Russia's Imperial Policy: The Administration of the Caucasus in the First Half of the Nineteenth Century*. *Canadian Slavonic Papers,* Revue Canadienne des Slavistes. (Vol. 17, No. 2(3)), RUSSIAN AND SOVIET CENTRAL ASIA pp. 218-235

7. *Qarabagnameler*. (2006). (I kitab). Baki.

8. Morshedloo Cavad. (payız 2015). *Car Rusiyasinin Qafqazdaki menfi inkisafının tarixi konteksti ve strateji mentiqi* (1550-1800). Xarici Elaqeler Tarixi. (Rubluk), (№ 64), (s. 45-71). (fars dilinde).

50. Rasulova, Y. (2019). *Tarixi yaddas medeniyyetin tekamulu dinamikasinda*, Metafizika Journal, (ISSN 2616-6879). Vol. 2. No 1, Serial 5, (pp. 65-96).

9. Kecheci, S. (October 2016). *The Grand Strategy of the Russian Empire in the Caucasus against Its Southern Rivals (1821-1833).* A dissertation submitted to the Department of International History of the London School of Economics and Political Science for the degree of Doctor of Philosophy. London. http://etheses.lse.ac.-uk/

10. *Turkmenchay muqavilesi*. https://azerbaijan.az/portal/History/

11. Verdieva, K. (2005). *The Russian Empire’s migration policy in the Caucasus*. The Caucasus & Globalization, vol. 1 (7), (p.p.129-136).

12. Yusifov ,Y. (2007). *Qedim Sherq tarixi*. Baki. (s.409-410).

13. Bushev, P.P. (1978). *Posolstvo Artemiya Volinskoqo v İran v 1715-1718 qq.* Moskova. ( 291 c.).

14. Velichko V.L. (1990). *Kavkaz.* Russkoe delo i mejduplemennie voprosi. Baku: Elm. (224 s).

15. Verdieva, X. & Quseynzade, R. (2003). *Rodoslovnaya armyan I ix*




www.SID.ir

Archive of SID


*miqratsiya na Kafkaz s Balkan*. Baku: Elm.

16. Jukov, K.A. (2009). *Nekotorie uzlovie momenti russko-turetskix otnosheniy v kontse XVII - nachale XX vv*, Vestnik Cankt-Peterburskoqo universiteta. Vostokovedeniye. Afrikanistika. Seriya 13. Vipusk 2, (s.10-12).

17. Kuznetsova, N.A. (1983). *Iran v pervoy polovine XIX veka*. Moskva: Nauka. Qlavnaya redaksiya vostocnoy literaturi. ( 265 s.).

18. Listsov, V.P. (1951). *Persidskiy poxod Petra I. 1722-1723.* Moskva: izd. Mosk. Un-ta. ( 248 s.).

19. Mamedli E. (2010). *Karabaxskaya saqa.* (V 2-x tomax. Tom 1.). Ot Petra do Pavla. Moskva: Novosti. (376).

20. Maqalyan, A. *Artsaxskie melikstva i voznikovenie Karabaxskoqo xanstva*. https://regnum.ru/news/cultura/1233462.html

***Dr. Shafag Akhmedova***

## *Russian Policy in the Caucasus from the Beginning of the XVIII Century and the Beginning of the XIX Century (Historical Information)*

*(abstract)*

*As you know, the realization of the national interests of the Republic of Azerbaijan requires the solution of many tasks related to information security. The obtaining, protecting, and using the necessary information makes it possible to apply successful tactics in solving the regional ethnic conflicts that impede the well-being of both the country and the region as a whole. Information is related to the origin of the conflict as well as to many aspects of its resolution. The conflict has historical roots. The specific event may immediately cause conflict. Around such facts and events, public opinion is formed. The forces supporting one side of the conflict or another have their own political interests. All this affects the course of political processes related to information. The article concerns the historical stages of Russian politics in the Caucasus and the role of the Armenian factor here. As historical facts show, it is necessary to take into account a great number of objective and subjective factors in the course of these processes. The Armenian community, which for centuries could not determine its fate, tried to conduct extensive diplomatic activities in the Middle East and many parts of Europe, including the South Caucasus, using the branches of the Gregorian Apostolic Church around the*



www.SID.ir

Archive of SID


*world. Here, the Armenians acted as merchants, soldiers, priests, terrorists, spies, and so on. They expanded their activities both within Russia and in the Caucasus, as well as in Turkey and Iran. This activity also coincided with the strategic interests of Russia. Such information should be reviewed in the light of the current Armenian-Azerbaijani conflict and taken into account so that the position of Azerbaijan prevails in the information war.*

**Keywords:** *Tsarist Russia, South Caucasus, political expansion, the Armenian community, socio-demographic policy, and its consequences.*

***Др. Шафаг Ахмедова***

***Политика России на Кавказе***
***с начала XVIII Ввека и начала XIX века***
***(историческая информация)***
*(резюме)*

*Как известно, реализация национальных интересов Азербайджанской Республики требует решения многих задач, связанных с информационной безопасностью. Получение, защита и использование необходимой информАции дает возможность применения успешной тактики в разрешении региональных этнических конфликтов, которые препятствуют благополучию как страны, так и региона в целом. Информация связана с происхождением конфликта и многими аспектами его разрешения. Конфликт имеет истори-ческие корни. Непосредственной причиной конфликта могут быть конкретные события. Вокруг таких фактов и событий формируется общественное мнение. Силы, поддерживающие ту или иную сторону конфликта, имеют свои политические интересы. Все это влияет на ход политических процессов, связанных с информацией. В статье рассматриваются исторические этапы российской политики на Кавказе, а также роль здесь армянского фактора. Как показывают исторические факты, в ходе этих процессов необходимо учитывать множество объективных и субъективных факторов. Армянская община, которая на протяжении веков не могла определить свою собственную судьбу, пыталась проводить обширную дипломатическую деятельность на Ближнем Востоке и во многих частях Европы, включая Южный Кавказ, используя филиалы Григорианской Апостольской Церкви по всему миру. Здесь армяне выступали в качествекупцов, солдат, священников, террористов, шпионов, и так далее. Они расширили свою деятельность как внутри – России, так и на Кавказе, а также в Турции и Иране. Эта деятельность также совпадала со стратегическими интересами России. Такая информАция должна быть пересмотрена в свете современного армяно-азербайджан-*



www.SID.ir

Archive of SID


*ского конфликта и учтена таким образом, чтобы в информационной войне преобладала позиция Азербайджана.*

**Ключевые слова:** *царская Россия, Южный Кавказ, политическая экспансия, армянская община, социально-демографическая политика и ее последствия.*

*Məqalə redaksiyaya daxil olmuşdur: 10.04. 2020*
*Təkrar işləməyə göndərilmişdir: 24.04. 2020*
*Çapa qəbul edilmişdir: 01.06. 2020*



www.SID.ir